Jl. Mas Putih Blok D Persil 29
Grogol Utara Kebayoran Lama
Jakarta Selatan 12210
Tel. : 549 19 39
Fax : 549 17 45
E-mail: azerbembjkt@u.net.id

Azərbaycan Respublikasının Səfirliyi
Cakarta

# Press-reliz

Misir Ərəb Respublikası Prezidentinin dəvəti ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Misirə üç günlük rəsmi səfər etmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev Misir Prezidenti Hüsni Mubarək, Baş Nazir Əhməd Nazif, Misir Xalq Məclisinin sədri Əhməd Fəthi Sürur, Ərəb Dövlətləri Liqasının Baş Katibi Əmr Musa və təşkilata üzv olan ölkələrin səfirləri, Əl-Əzhər Əl-Şərif Universitetinin rektoru ilə görüşmüş, qarşılıqlı maraq kəsb edən müxtəlif ikitərəfli və çoxtərəfli məsələləri müzakirə etmişdir.

Azərbaycan Prezidenti bazar ertəsi Qahirədə Naməlum əsgər abidəsi önünə əklil qoymuş və Misirin keçmiş Prezidenti Ənvər Sədatın məzarını ziyarət etmişdir.

Prezident Azərbaycanın Misirdəki səfirliyinin yeni binasının rəsmi açılışını həyata keçirmişdir.

Səfər zamanı aşağıdakı Saziş, Anlaşma Memorandumu və Protokollar imzalanmışdır:

- Azərbaycan Gənclər və İdman Nazirliyi və Misir Milli İdman Komitəsi arasında idman sahəsində əməkdaşlıq barədə Saziş
- Azərbaycan və Misir Ədliyyə Nazirlikləri arasında əməkdaşlıq barədə Saziş
- Azərbaycan Kənd Təsərrüfatı və Misir Kənd Təsərrüfatı və Torpaqlardan İstifadə Nazirlikləri arasında əməkdaşlıq haqqında Saziş
- Azərbaycan və Misirin poçt təşkilatı arasında beynəlxalq pul baratlarının mübadiləsi üzrə Saziş
- Azərbaycan Dövlət Teleqraf Agentliyi və Misirin Yaxın Şərq Xəbərlər Agentliyi arasında əməkdaşlıq barədə Saziş

- Azərbaycan və Misir hökumətləri arasında turizm sahəsində Anlaşma Memorandumu
- Azərbaycan və Misir Daxili İşlər Nazirlikləri arasında Anlaşma Memorandumu
- Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Misirin Təbii Ehtiyatlar Qurumu arasında texniki əməkdaşlıq barədə Protokol
- Azərbaycan Respublikasının Abşeron Rayonu İcra Hakimiyyəti və Misir Ərəb Respublikasının Qəlubiyyə Vilayəti arasında Anlaşma Memorandumu
- M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası və Misir Ərəb Respublikasının İskəndəriyyə Kitabxanası arasında Anlaşma Memorandumu
- Azərbaycan Rabitə və İnformasiya Texnologiyaları və Misir Rabitə və İnformasiya Kommunikasiya Nazirlikləri arasında əməkdaşlıq haqqında anlaşma memorandumuna Əlavə Protokol
- “Azərbaycan Hava Yolları” Dövlət Konserni ilə Misirin Mülki Aviasiya Təşkilatı arasında hava nəqliyyatı haqqında sazişə Əlavə Protokol

9 may 2007-ci il